# Şair özünütəsdiqinin gücü vaxtin inkarı... düşüncənin meyarı...

Çox vaxt həyatı səssiz nəzərlərlə süzən cəmiyyətin qalmaqallarına küsüşmələrə, barışmalara, çaxnaşmalara, yaxud, bezdirici sükuta bəsirət aləmindən baxıb bəzən, istehzalı, bəzən təqdiredici, bəzən də mahiyyəti bilinməyən münasibəti ilə tanınan adamlara öz aləmindədir, - deyirik. Kimlərsə öz aləmində olmağı biganəlik kimi də qavraya bilər. Ancaq bizə elə gəlir ki, belə adamlar cəmiyyəti bütövlüklə öz varlıqlarına köçürür. Hətta təkcə cəmiyyəti yox, cəmiyyəti formalaşdıran mühiti təbiəti ilə birlikdə öz aləminə sığdıra bilir. Və bu aləmin içində bəlkə də ən qaynar yerində özünü görür. O, kiminsə tərəfində durmur. O özü ayrıca bir tərəfdir. Onu əhatə edən tərəflərin yaxşılarını əxz edir, yamanlarına qarşı hissi, daxili emosiyası ilə sipər olur. Mənə qalsaydı, Azərbaycanın ünlü şairi, ustad sənətkarı Ağacəfər Həsənlini öz aləmində olan adam kimi təqdir edərdim. Axı Ağacəfər cəmiyyət üçün təkcə adam deyil, o, həm də, cəmiyyətin mənəvi mühitini müəyyən mənada istiqamətləndirən və buna gücü çatan şairdir. Əlbəttə, o cəbhə açıb hər kəsi öz prinsiplərinə tabe etmək iddiasında da deyil. Elə bu səbəbdən yuxarıdakı məsəli bir qədər improvizə edərdim. Ağacəfər öz şairliyində olan sənətkardır.

Çox vaxt sakit axan çaylara bənzəyir. Harda dərindir, harda dayazdır bilə bilməzsən. Bəzən yandırıcı şeirləri ilə alov kimi od çıxarıb dilini-ağzını pörşələyər:

Göy üzü ruzusun tökür,
yer başlayır kövşəməyə.
Buludlar torpağa çökür,
meh başlayır tövşüməyə.

Bu hava yetənə yetir,
yetməyir, daş atıb gedir...
Kim dumanı məcbur edir
dağda, daşda kişnəməyə.



Vaxt bivaxt, sərvaxt vaxt çapır,
gah yorğa gedir, gah sapır.
Göydə ildırım vaxt tapır,
dodağını dişləməyə.

Hətta elə bu şeirdə olduğu kimi, yarım sual, yarım nida həyəcanları ilə oxucusunu fikir qabağına qatıb qovur. Arxasınca daban basaraq gedir. Və maraqlıdır ki, onun sual və nidaqarışıq həyəcanları oxucu üçün işığa çevrilir. Əslində, oxucu həyəcanları ilə onu izləyən şairin işıq verdiyi yoldan kənara çıxa bilmir.

Ağacəfər sənətkarlığının müxtəlif tərəflərdən meyarını axtarmağa çalışmışam. Bəzən bu meyarı vaxt kimi qavramışam. Az keçməmiş görmüşəm ki, o vaxtla hesablaşmır. 2010-cu ildə nəşr olunmuş "Yağmur əlifbası" kitabının "Ön söz" əvəzi kimi verdiyi "Vaxta xitab" şeirindəki obrazı nəzərdə tuturam. Əvvəlcə, çağırış var, vaxtı saxlayıb onunla dilləşmək istəyi var. Vaxtın müxtəlif tərəflərdən şərhi var:

"Eyyy... hara gedirsən, səssiz gedirsən,
gedirsən güllə kimi - suyu süzülə-süzülə.
dala baxmadan.
Gedirsən, gedirsən, çata bilmirsən:
yolların qurtaracağında,
illərin qürub çağında,
sümüyə dirənir bıçaq.
Qabağa baxıram sən görünürsən,
arxaya baxıram sən görünürsən,
arxayın baxıram, sən görünürsən.
Eyyy, hara gedirsən, lal çaylar kimi,
suların dili var, eşidir axı,
sular yırğalanan beşikdir axı.
Gözə kül üfürür mum kimi sular,
Eyyy, hara gedirsən:
atlı, piyada,
suların üstündə: dağda, qayada.
İşıq sürətiylə: göydə, havada.
adam surətində azmırsan yolu,
"Quran surəsində gedirsən elə.
Küləyin səsində itirsən elə. səh3

Bəzən də sualları ilə vaxtı sual qarşısında qoyur. Heç onun hakimiyyətinin hədsizliyinə, hüdudsuzluğuna belə baxmır.

Nə əvvəlin bəlli, nə sonun bəlli,
demirsən "ağlamaz özü yıxılan".
Saata baxıram sən vaxt udursan,
udduğun bu vaxtı nə vaxt udursan.

Eyyy, hara gedirsən, ay qara dinməz?
Hamıdan kəsirsən,
özün kəsirsən...
İlsən, qərinəsən, yoxsa əsrsən?
Sürüşüb aradan elə çıxırsan,
adamın evini belə yıxırsan,
ay geridönməz,
ay qaradinməz.

Amma tezliklə özünə də aydın olur ki, vaxt onun ölçüsü deyil, meyyarı deyil. Və vaxtın da kəm-kəsirləri var. Çəkinmədən bu kəm-kəsirləri onun üzünə oxuyur. İstəyirsən ki, razılaşmayasan. Axı ən böyük hakimin vaxt olduğunu iddia edən filosofları necə danmaq olar.

*(Davamı 2-ci səhifədə)*

Kredo 2020.- 10 dekabr.- S.1-2.

*(Əvvəli 1-ci səhifədə)*

Şair öz məntiqi ilə vaxta sığışmadığı üçün onu inkar etməyə, onun kəm-kəsirlərini üzünə çırpmağa özündə cəsarət tapır. Və onu kifayət qədər özünə xas bir üslubda yamanlamağı da bacarır.

Ağacəfər Həsənlinin yaradıcılıq meyarını dəqiq müəyyənləşdirməyin bir çətinliyi də onun vaxta sığmazlığından keçib məkanda hüdudlanmamağı ilə izah etmək olar. Yəni məkan anlayışında da Ağacəfər müəyyən sərhəddə qapanıb qalmır. Məkanı şairin dünyası kimi də başa düşmək olar, onu böyüdüb yetirən ərazi və mühit kimi də qavramaq olar. Şeirini yazmaq üçün "bəhanə" tapa bildiyi iki daşın arası kimi də qavramaq mümkündür. Amma Ağacəfər üçün yenə məkan ölçü olmur, meyar olmur. "Kiçik adanın sakinlərinə" şeirinin mahiyyətini, dərk etmək bəs edir ki, başa düşəsən. Ağacəfər üçün - sözün qanadlarında ruhuyla Tanrının yanınacan qalxmış şair üçün məkan ölçü ola bilməz.

Bu adada ki, siz yaşayırsınız,
mənə elə gəlir, bir az yağış yağsa,
torpaq qalacaq su altında.
Bir az qar yağsa,
ada qalacaq qar altında.

Şeirin sonun da isə məkana qapanmış, ada içindəki ərazini özünə qədim insanın mağarası kimi qucaqlayanları daha sərt ittihamlarla sözünün hədəfinə çevirir. Əslinə qalsa, məhdud məkan içində vurnuxanların əsas qorxusunu görür. Bu, adı itirmək qorxusudur. Ucuz şöhrətin, məkanın bəxş etdiyi mərtəbənin itirilmək qorxusudur:

...Hər tərəfiniz sudu,
Su tapmırsınız içməyə.
Körpü tapmırsınız keçməyə.
Hələlik balıqlar yeminizdir,
Ancaq bir gün siz balıqların
yeminə çevriləcəksiz.
Adanız tərəfə yan almış gəmilərə
Tərs-tərs baxırsınız -
Guya torpaq oğurlayacaqlar.
Bilirəm, siz adanızı qoruyursuz ki,
Adınızı qoruyasınız.

Bu, xəbərdarlıqdır, özü də kifayət qədər ciddi xəbərdarlıqdır. Əgər bu xəbərdarlığı əsl mahiyyətinə çevirib oxusaq şair deyir: Siz dünyaya qucağınızı açın. Yalnız dünyaya doğmalıqla özünüzü xilas edə bilərsiniz. Burnunun ucundan o tərəfi görməyən hər kəsə aiddir bu xəbərdarlıq, eləcə də, erməni vandallarına. Zənnimcə, şair xəbərdarlığı elə, belə olmalıdır.

Biz nə vaxt sınırıq? Güvəndiyimiz insanların aynası sınanda, inandığımız ocaqlar sönəndə biz içimizdən sınırıq. Biz sındığımız anda dünyaya güvəncimizi itiririk. Düşünürəm ki, şair aləmi cəmiyyətin, insanlığın düşüncə istinadı, güvənc mənbəyidir. Şair zəmanəsinin bütün təhdidlərinə baxmayraq, özünün səmasında ləngərli uçuşu ilə ona atılan daşlardan yuxarıdadırsa, onun qəlb aynası hər vaxt sağ və salamat olacaq. Demək, onu güvənc bilən insanların da aynası salamat olacaq, ruhu qorunacaq. Bu mənada, şair məkanı cılız hisslərlə, duyğularla yaşayanların əl yetəni deyil.

Belinskisayağı desək, "şair nə qədər yüksək olursa, içərisində doğulduğu cəmiyyətə bir o qədər çox məxsus olur, onun istedadının inkişafı istiqaməti və hətta xarakteri cəmiyyətin tarixi inkişafı ilə bir o qədər daha sıx bağlanır". Demək, şairin yükək olması cismən boyunun hündür olması demək deyil. Fiziki baxımdan canlı-cüssəli olması deyil. Şairin yüksək olması düşüncələrinin aliliyi ilə ölçülür.

Ağacəfərin poeziyasındakı məkanı dağıdan, laməkanlığa meyilli düşüncələri onun Belinski deyən yüksəkliyilə tam müvazidir. Şeirlərindəki təmənnasızlıq gücü onu sözün həqiqi mənasında məkana sığmaz edir. Və bütövlükdə onu insani varlığın övladı olaraq oxucu düşüncəsinə diktə edir.

Səbəbi də odur ki, o, bir şair olaraq nə qədər məkanda mövcuddursa, nə qədər vaxta tabedirsə, bir o qədər də məkansızlıq aləmindədir. Çünki onun ruhu vaxta tabe olmadığı kimi məkanı da özünə sabit, isti bir bucaq hesab etmir.

Düşünürəm ki, bütün bunların hamısı Allahla yer arasında, Tanrı ilə bəndə arasında güc mərkəzi ola biləcək söz sahibinə xas keyfiyyətdir. Elə buradaca deyəsən düşdüyüm qaranlıqdan gözlərini çəkən bir işıq görürəm. Və işığı tutub getdikcə, məkansızlıqdan, vaxtsızlıqdan ucada olan sözü görürəm. Və nəhayət belə bir fikir mənim düşüncələrimə hakim olur ki, Ağacəfər Həsənli böyük söz adamı olduğuna görə elə onun meyarının da söz olduğunu bilmək nə qədər çətin olsa da, son qənaətdir. Onun üçün sözün meyar olduğunu bilmək çətin olmaz. Əgər söz adlı çox orijinal şeirini oxumaq gücümüz olsa... Oxumaq təkcə göz deyil, həm də fikrən duymaqdır. Təkcə elə "Söz" sözünün özünü duymaq qədər.

Oğlumdan, nəvəmdən, qan qardaşımdan,
Mənə bir köynək də yaxınsan, Söz.
Qaçıram, çatıram yenə qarşımdan,
Əski sular kimi axırsan, Söz.

Mən - hər şey itirən, hər şey qazanan,
Gecələr gözlərim dönür qazana...
Düşüb üzü üstə yazı yazanam,
Sən elə uzaqdan baxırsan, Söz.

Öz ömür taxtımda kirənişinəm,
Yəqin Əzrayıl da vurub dişinə...
İndi iynə ilə bir gor eşənəm,
Gözümə gözlükdə taxırsan, Söz.

Məni böyrü üstə yıxan az idi,
Kölgəmi yandırıb-yaxan az idi?
Xaraba dünyada sıxan az idi -
Sən də bir tərəfdən sıxırsan, Söz.

Bilərəkdən bəndlərin arasına girmirəm. İmkan açmaq istəyirəm ki, oxucu şairin düşüncəsindən gələn söz aliliyini, söz qüdrətini müəllifin istədiyi qədər qavraya bilsin. Ən azı, heç olmasa, müəllifin düşüncə sferasına yaxınlaşa bilsin. Bir qazan içində qaynayan şairin yanmağı bir tərəfə, nun idealı olan sözün kənardan baxmağı... istər-istəməz düşündürücüdür, həm də sarsıdıcıdır. Əslində, bu, elə sənətkarlıqdır. Şair sözü yarada-yarada, sözün qazanında qaynaya-qaynaya danışır və həm də bizim təbirimizcə danışmır, misralar, sözlər onun yanmağının dilləri kimi üzə çıxır.

A.Həsənli sözə sitayiş edəndə, sözə müqəddəs ocağın daşı kimi baş qoyanda qətiyyən düşünmür ki, söz onu bu pərəstişlərinin müqabilində hansısa mükafata urcah edəcək. Sözün önündə səmimi təmənnasızlıq sözün diqqətindən kənarda deyil, söz onu Füzulisayaq desək, qədərincə əzizləyəcək.

Artıq yuxarıda bir balaca işarə vurmuşdum. Ağacəfər hay-küylü şair deyil. Daxili aləmində nə qədər qanlı savaşlar getsə də, bu savaşların ahlarıharayları kimi üzə çıxan sözü sakit axan çayın pıçıltıları kimi üzə çıxır.

Təbiətinin qavradığı mühitdə onun sözü klassik musiqini - sinfoniyanı daha çox xatırladır.

Muğamla sinfonik musiqini birləşdirmək az olmayıb. Belə cəhdlərin əvvəlində hətta mütəxəssiz dinləyicilər də onun uğursuzluğu haqqında düşüncədə qəti olduğlarını deyirdilər. Zaman keçdikcə cəmiyyətin düşüncə ölçüləri öz inkişafı ilə, səsin möcüzələri ilə qarşılaşmalı oldurlar.

Və Ağacəfər Həsənlinin həzin simfonik musiqini andıran və dinləyicisini (oxucusunu) axıracan özüylə çəkib aparan şeirlərinin ümumi axarında biz insan səsini, insan qəlbinin dərinliklərindən gələn duyğuların səsini öz varlığımızın su istəyi kimi təşnəsi oluruq.

"Şəkilimi vermirəm" adlı bir şeiri var. Sanki kimsə ondan soruşur ki, sən nə üçün kitablarının üstündə şəkilini vermirsən? Bu suala hər bir şair öz düşüncəsinə uyğun cavab verə bilər. amma Ağacəfərin məntiqi mənə daha çox inandırıcı göründü:

Şəklimi vermirəm
kitabımın üstündə.
Birdən şəklimdən oxuyacaqlar
şeirimi.
Məni məndən oxumaq daha asandı,
nəinki sözlərimi...

Məni heca-heca,
höccələyə-höccələyə
oxumaq mümkün deyil.
Məni bütöv oxumaq mümkündü -
tərəzi gözlərimin rəngindən,
sözlərimin pərsəngindən...
qafiyəsindən, vəznindən.

Şair kitabının üstündə vermədiyi şəkilin əvəzində danışır. Sanki qeyriləri yox, elə şəkilinin özü ondan incik düşüb. Səbəbini soruşur: axı nə üçün müəllif şəklini kitabının üzərində vermirsən? Və şair bunu özünəxas bir tərzdə, bir qədər təkrar kimi çıxsa da, təzədən oxucu diqqətinə çəkirik. Bəzən sözü bir tərəfə qoyub şəkilə baxırıq, şəkillə danışmaq istəyirik. Müəllifin fəlsəfi-psixoloji düşüncəsinə görə şəkillə danışmaq oxucu üçün çox asandır. Çünki orada tərəzi gözlər var, sözün pərsəngi var, nə bilim, daha nələr var... Amma sözün özünü oxumaq, sözün özünü oxuduqca ondan gələn ağrıların və ağrılıqların cəfasına dözmək var.

"Çəkməsən cəfa, görməzsən səfa" el hikmətidir, təsadüfi deyilməyib. İndi buyur, indi o şəklə yox, onun arxasında dayanan söz sahibinin söz aləminə gir. Onda bilərsən hər söz hansı ağrı ilə yaranıb? Şairin fəhmi ilə portret-şeirin rənglərini axtarırıq və nəhayət, sözün özü ilə şairin özünü görürük:

Hansı söz ağırdı,
hansı birisi yüngül?
Fəhmim mənə deyir ki,
özünü aldatmaqçün
gözlərini yum, gül...
kirpiklərin örtülsün gülül-gülül,
təbəssümün açılsın sünbül-sünbül.

Şəklimi vermirəm
kitabımın üstündə.
Mənim şəklim suların gözündədi,
otların üzündədi,
atların üstündədi,
çayların dibindədi.
Şəklimi vermirəm
kitabımın üstündə...

Demək, şəkli verməməyin səbəbləri çözülərkən şair gülül-gülül örtülən kirpiklərdən, sünbül-sünbül açılan təbəssümdən... vermədiyi şəklin diktə elədiyi həqiqətləndən danışır. Otları yada salır, atları yada salır, çayların dibinə güzar eləyir və bir daha diqqəti yönəldir çəmən-çəmən gözəlliklərin arasındakı atlara bax və o atların üstündə məni gör. "Könlü atlanmaq" deyirik; məqsədinə, məramına yürüyənə atlanıb deyirik. Və nəhayət, şeirin məntiqi yekunu budur: atlanmasan, adlana bilməzsən.

Söz A.Həsənlinin köhlənidir. Şimşək itiliyilə şığıyan, düşüncələrin qılıcından keçən ay kimi işğına çağıran cazibə mərkəzidir.

A.Həsənlidə söz Füzulinin özüdür. Ona görə də sözü şəkildən uca tutur. Axı Allahın da şəkli yoxdur. Gerisi oxucunun özünə də məlumdur.

Ağacəfərin sözünü söz eləyən ən sərrast obrazlarından biri də QANdır. "Qan" adlı poetik essesinə (şair bu əsəri "Ruhun kölgəsi") adlandırır və öz kitabında həmin əsəri lirik-fəlsəfi parçalarla poema kimi təqdim edir. Etiraza yer yoxdur. Çünki hər parçanın özündə arası kəsilməyən düşüncə axarının gözü (ruhu) tutub saxlayan gücü var. Bu güc damardan keçib ürək matoru ilə beynə vurulan düşüncəni hərəkətə gətirən enerjidir.

Yüksək təziqi olan adamlkar deyirlər ki, "elə bil başımın damarlarındakı qanımın səsini eşidirəm. Onun şırıltısını, onun axarını az qala öz gözlərimlə görürəm". Ağacəfər Həsənli cəmiyyəti hərəkətə gətirən qanı görür. Bu qanın axarında "Həşdadsər" vuruşmasını görür. Xürrəmilərin öz torpağında qan içində qərq edilməsini görür. Əgər dünyaya tətbiq etsək, Cahan savaşlarını görür. Söykəndikləri güc mərkəzlərinin təhriki ilə kəsilmiş Azərbaycan damarlarını görür. 30 il Azərbaycan öz qanı içində çabalayıb. Və nəhayət, öz qanından güc alaraq yağıya qan içində boğulmağın nə demək olduğunu göstərə bilib. Ağacəfər bütün bu dediklərimin hamısını, heç birisinin adını çəkmədən qanlı misraların içində tam aydınlığı ilə verə bilir.

Qan ağacı - can ağacı...
haçan canım ağrayır,
qanım ağrayır.
Qanım ağrıyanda, canım ağlayır,
tökülsün torpağa lakey qanlarım,
nə var öz-özümlə məzələnməyə.
Mənim damarımın ögey qanları,
çağırır qanımı təzələnməyə.

* * *

Qan - üzümün avazımış rəngidi,
səsimin zəngidi.
Gözümün qarasıdı,
ağıdı, qorasıdı.
Qan-duyğudu hissiyyatdı,
Qan qorxudu -
deməli, ömrün fısı yatdı,
Namərdin sapandı
bostanına daş vızıldatdı.

Hərdən mənə elə gəlir ki, dünya-aləm baş-ayaq olsa, yenə Ağacəfərin təmkin-tövrünü pozmağa gücü çatmaz. Bu çarxı çevrilən dünyanüın əhvalına baxıb necə təhər-tövrünü pozmamaq olar? Bunun ancaq bircə səbəbi var: Şair mənəvi mühitinin görünməyən tərəfində, özünün şairlik aləmində o savaşdan kənarda deyil, o gücdən kənarda deyil. Bütün varlığı ilə qanla dolu olan zamanın və məkanın içində olduğu üçün çarxı çevrilmiş dünyanın harayı onun tövrünü poza bilmir. Əgər mənim içimdə dünya təlatümdədirsə, zahirən fırtınaya çevrilmiş olan aləm məni necə saxlaya bilər?

***(Davamı var)***